**Orucoğlu, Z**. Milyonların qəlbində əbədi yaşayan // Respublika. - 2025. - 8 avqust. - **№ 164**. - S. 9.

44 günlük haqq savaşımızda tarixi zəfərimizin əldə olunmasında minlərlə Vətən övladı ilə bərabər İlkin Kazımov da böyük şücaət göstərib. Azərbaycanın yeni, şanlı tarixini yazan qəhrəmanlardan söz düşəndə həmişə İlkinin adı böyük fəxrlə çəkilir. Doğma Astarada kiçik də, böyük də İlkini böyük məhəbbətlə yad edir, onun şərəfli ömür yolunu örnək sayırlar.

Canından artıq sevdiyi Azərbaycanın daşına, torpağına ürəkdən bağlı olan gizir İlkin Kazımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsinə birincilər sırasında qatılıb. İştirak etdiyi döyüşlərdə rəşadət nümunəsi göstərib, düşmənə ciddi itkilər verməklə tanınıb. Mərdliyi, qəhrəmanlığı onunla çiyin-çiyinə vuruşan yoldaşlarını qələbəyə ruhlandırıb. İlkin Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Doğulub boya-başa çatdığı Astaranın Artupa kəndində torpağa tapşırılıb. Ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalına layiq görülüb.

İlkin Kazımovun Vətənlə döyünən ürəyi dayananda o, 25 yaşında olub. Fəqət şəhidlər ölmür, əbədi yaşayırlar. Astaralılar öz qəhrəman oğlunun yaddaşlarda yaşayan İlkin Kazımovun ad gününü adəti üzrə qürurla qeyd etdilər. Ziyarətçilər onun uyuduğu müqəddəs guşəyə baş çəkdilər, ehtiram əlaməti olaraq məzarı önünə gül dəstələri düzdülər.

İlkin Vətən, bizlər üçün öz canını fəda edib. Ölümsüzlüyə qovuşan qəhrəman oğlumuz hər cür sevgi və məhəbbətə layiqdir. Milyonların ürəyində özünə əbədi məkan quran İlkinin adı həmişə Vətənlə birgə çəkilir.